**Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli, 155 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı»nda dəyişiklik edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli, 155 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 1001; 2008, № 12, maddə 1057; 2010, № 7, maddə 617; 2011, № 1, maddə 21) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı»nda «Sumqayıt Baş Gömrük İdarəsinin rəisi — gömrük xidməti general-mayoru» abzasından sonra aşağıdakı məzmunda abzas əlavə edilsin:

«Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavini — gömrük xidməti general-mayoru».

**Azərbaycan Respublikasının Prezidenti**

**İlham ƏLİYEV**

**Bakı şəhəri, 24 yanvar 2012-ci il**

**№ 574**

**«Azərbaycan» qəzetində dərc edilmişdir (25 yanvar 2012-ci il, № 18) («VneshExpertService» LLC).**